# *Viktor KİPİANİ:* "Orta dəhliz regional logistikanın fundamental komponentinə çevriləcək"

**Tammiqyaslı reallaşdırılacağı təqdirdə Orta dəhliz bütün nəqliyyat axınlarını kifayət qədər ötürücülük qabiliyyəti ilə qəbul edə biləcək. Layihənin tam həcmdə tətbiqi onun regional logistikanın fundamental komponentinə çevrilməsinə imkan verəcək.**



Bu barədə gürcü eksperti və "Geocase" analitik mərkəzinin rəhbəri Viktor Kipiani AZƏRTAC-ın "Azərbaycan və dünya" proqramının ilk buraxılışında Zəngəzur dəhlizinin Gürcüstan tranzit marşrutunu tamamlamaq potensialını qiymətləndirərkən bildirib.

Buraxılış qlobal proseslərin Azərbaycana təsiri, Cənubi Qafqazdakı əsas geosiyasi və iqtisadi tendensiyalar, o cümlədən nəqliyyat və logistika marşrutları, ABŞ və Çinin regiondakı rolu, Azərbaycan-Gürcüstan əməkdaşlığının perspektivləri kimi mövzulara həsr olunub.

Gürcüstanda alternativ marşrutların inkişaf etdirilməsinin ölkənin rəqabət qabiliyyətinə təsiri ilə bağlı müzakirələrin aparıldığını təsdiqləyən ekspert qeyd edib ki, belə bir yanaşmaya təhlükə deyil, stimul kimi baxılmalıdır. "Bu, bizim üçün bir növ ev tapşırığıdır, yəni Gürcüstanı öz rəqabət qabiliyyətini artırmağa sövq edən əlavə bir təkandır. Bu çağırış zəiflətmək deyil, əksinə, potensialımızı və kapitalımızı gücləndirmək iqtidarındadır", - deyə o bildirib.

V.Kipianinin sözlərinə görə, Gürcüstanın əhəmiyyəti təkcə coğrafi mövqeyi ilə deyil, həm də Qara dənizə açılan qapı qismində rolu ilə müəyyən edilir. Müsahibimiz aparıcı Tamilla Məmmədova ilə söhbətində vurğulayıb: "Sahilyanı ərazimiz Gürcüstana xüsusi mövqe qazandıran strateji bir resursdur".

O əlavə edib ki, yeni marşrutlara rəqabət və ya qısqanclıq mövqeyindən baxmamaq lazımdır. "Əksinə, biz onları bütün regionun tranzit potensialını gücləndirən ümumi müsbət dinamika kimi görməliyik. Bu medalın müsbət tərəfi açıq-aşkar göz qabağındadır. Qeyd etdiyim üç aspekt də bunun birbaşa təsdiqidir", - deyə Gürcüstan analitik mərkəzinin rəhbəri sözlərini yekunlaşdırıb.

Azərbaycan.- 2025.- 4 noyabr (№ 235).- S.10.